Xalq qəzeti.- 2024.- 14 iyul (№ 146).- S.



İstiqlal tariximizin yadigarları

# Əli bəy Hüzeynzadənin skripkası və daha nələr...

**Tarixi şəxsiyyətlərin həyat və mübarizə yoluna olan marağım bu dəfə məni İstiqlal Muzeyinə gətirdi. Muzeyə daxil olar-olmaz Azərbaycanın istiqlal tarixi bütövlükdə gözlərim önündə canlandı.**

Budur, sanki, Azərbaycan davasının, azad və müstəqil yaşam uğrundakı mücadilənin düzəngahını seyr edirəm. Burada sərgilənən Azərbaycan Xalq Cümhuriyyətinin məşhur simalarının fotoları və Əli bəy Hüseynzadəyə aid əşyalar məni bir nöqtədə ayaq saxlamağa vadar edir. Öyrənirəm ki, Cümhuriyyətin 106, Əli bəyin isə 160 illiyi çərçivəsində muzeydə tədbirlər keçirilib, sərgilər təşkil olunub.

İstiqlal Muzeyinin "Cümhuriyyət dövrü" zalında Azərbaycan ictimai fikrinin görkəmli nümayəndəsi, yazıçı-publisist Əli bəy Hüseynzadəyə aid əşyalar, xüsusilə də zalın ən görünən yerində qoyulmuş, yaşı bir əsrdən çox olan musiqi aləti – skripka diqqətimi çəkir. Sən demə, hərtərəfli istedada malik olmuş Əli bəyin musiqiyə də böyük həvəsi olub və vaxtilə bu alətdə bir-birindən gözəl nəğmələr səsləndirib. Görkəmli ziyalımız Avropa bəstəkarlarının və dahi Üzeyir Hacıbəylinin əsərlərinə üstünlük verərmiş. Bu skripka 2016-cı ilədək Əli bəyin şəxsi kolleksiyasında saxlanılıb. Elə həmin il onun qızı Feyzavər Alpsar Turan tərəfindən atasına məxsus 161 ədəd əşyanın arasında Türkiyədən gətirilərək İstiqlal Muzeyinə hədiyyə edilib.

Öyrəndim ki, musiqi alətinin bərpaya ehtiyacı olduğundan 2017-ci ildə Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinə verilib, işlər tamamlandıqdan sonra yenidən muzeyə gətirilib. Həmçinin Əli bəyə məxsus stol və stullar, orden və medallar, fotolar, "Həyat" qəzetinin ilk nüsxəsi, Feyzavər xanımın və oğlanları Səlim Turanın abstrakt üslubda çəkdiyi rəsm əsərləri və digər əşyalar da burada göz bəbəyi kimi qorunur.

Muzeyin direktoru Sədi Mirseyibli söylədi ki, Əli bəy Hüseynzadəyə məxsus əşyalar 2017-ci ilin iyun ayında Mədəniyyət Nazirliyinin dəstəyi, İstiqlal Muzeyinin təşkilatçılığı ilə reallaşan tədbirdə ictimaiyyətə təqdim edilib:

– Prezident İlham Əliyev dahi şəxsiyyət Əli bəy Hüseynzadənin qızı Feyzavər xanımı mədəniyyətə xidmətlərinə görə 2018-ci ildə "Dostluq" ordeni və "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" medalı ilə təltif edib. Həmin vaxt muzeyimiz Əli bəyin ideya müəllifi olduğu üçrəngli bayrağımızı Feyzavər xanıma bağışlayıb. 2022-ci ildə İstiqlal Muzeyi tərəfindən "Əli bəy Hüseynzadənin mədəni irsi" adlı kitab-albomu nəşr etdirmişik. Kitabda Əli bəyin kolleksiyasına aid əsərlər və əşyaların fotosu öz əksini tapıb.



Zalda Əli bəy Hüseynzadəyə aid maraqlı materiallardan biri də "Bibiheybət"in ilk orijinal eskizidir. Bu əsərin kətan üzərində olan orijinalı hazırda Milli İncəsənət Muzeyində saxlanılır. O illərdə Əli bəy Hüseynzadə Hacı Zeynalabdin Tağıyevin açdığı mətbəədə fəaliyyət göstərirmiş. Bir gün Hacıya məlumat çatır ki, ingilislər Əli bəyin bu əsərini almaq istəyirlər. Hacı onun ingilislərə satılmağına qarşı çıxır, əsəri özü alıb muzeyə hədiyyə edir və deyir ki, Əli bəy bilməsin, yoxsa o pulu götürməz...

Beləcə, Əli bəy Hüseynzadənin miraslarını gördükcə bir daha şahidi olduq ki, müdrikliyi, dərin fəlsəfi fikir və zəngin təfəkkür tərzi ilə böyük ziyalı imici qazanmış bu böyük mütəfəkkir əbədi ömür qazanmış şəxsiyyətlərdəndir.

***Ceyhun ALIŞLI***